

**2025-ci il dövlətçilik tariximizdə xüsusi yer tutur. Məhz bu il ölkəmizdə iki mühüm hüquqi və siyasi hadisənin - Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü qeyd olunur.**

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 27 il keçir

*"Konstitusiya Məhkəməsinin insan hüquqlarının müdafiəsi sahəsində mühüm beynəlxalq sənədlərə əsaslanaraq qəbul etdiyi qərarlar insanların siyasi, iqtisadi, sosial və digər hüquq və azadlıqlarının təmin edilməsinə, dövlətin hüquqi bünövrəsinin möhkəmləndirilməsinə, gələcək nəsillər üçün zəngin hüquqi irsin formalaşmasına xidmət edir".*

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi hüquqi dövlət quruculuğunun yeni inkişaf mərhələsini ifadə edir. Bu mühüm qərarın qəbul edilməsi hüquqi dövlət quruculuğunun prioritet istiqamətlərini bir daha ön plana çıxararaq dövlətçilik təfəkkürünün və konstitusional dəyərlərin daha da möhkəmləndirilməsi məqsədi daşıyır. Eyni zamanda, dövlət başçısının bu təşəbbüsü ölkənin hüquqi-siyasi sistemində Konstitusiyanın mərkəzi rolunu bir daha təsdiqləmiş, hüquq mədəniyyətinin, hüquqi savadlılığın inkişafına xüsusi töhfə vermişdir.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində ölkəmizdə hüquqi maarifləndirmə tədbirlərinin genişləndirilməsi, vətəndaşlara, xüsusən gənc nəslə Konstitusiyanın mahiyyət və əhəmiyyətinin dərindən aşılanması prioritet istiqamətlərdən birinə çevrilmişdir.

Azərbaycan xalqının dövlətçilik tarixində bir çox önəmli mərhələlər olmuşdur. Lakin 1990-cı illərin əvvəllərində xalqımızın üzləşdiyi çətin sınaqlar onu deməyə əsas verir ki, bu dövr dövlət müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi baxımından xüsusilə çətin dövr olmuşdur. Məhz bu ağır və ziddiyyətli zamanda Ümummilli Lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycan tarixində dönüş nöqtəsidir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli islahatlar və hüquqi quruculuq işləri müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsinə təkan vermişdir.

*Dövlətçiliyimizin müstəqil və hüquqi əsaslar üzərində qurulması prosesi məhz Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə reallaşdı. 1995-ci ildə qəbul olunmuş Konstitusiya bu prosesin məntiqi və hüquqi nəticəsi olmaqla, dövlət idarəçiliyinin bütün sahələrinə istiqamət verdi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə formalaşmış hüquqi baza müasir Azərbaycanın inkişafının, sabitliyinin və beynəlxalq nüfuzunun əsas təminatıdır.*

Qeyd edilməlidir ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etsə də, dövlətin siyasi və hüquqi strukturları tamamilə dağılmış vəziyyətdə idi. Hakimiyyətin qeyri-sabitliyi, iqtisadi tənəzzül, Ermənistanın işğalçılıq siyasəti ölkəni iflic vəziyyətə gətirmişdi. Silahlı qarşıdurmalar və çevriliş cəhdləri ölkəni vətəndaş müharibəsinə aparırdı. Belə gərgin dövrdə Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevə üz tutdu və 1993-cü il 15 iyun tarixində Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu tarix sonradan müasir tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərqərar edilməsinə, dövlət institutlarının fəaliyyətinin tənzimlənməsinə, hüquqi islahatlara və milli həmrəyliyə şərait yaratdı. Məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yeni hüquqi sistemin əsasları formalaşdı. Konstitusiya quruculuğu mərhələsinə qədəm qoyuldu. Yeni dövlət idarəçiliyi modelinin yaradılması, insan hüquq və azadlıqlarının təmin edilməsi, mülkiyyət münasibətlərinin tənzimlənməsi və dövlət orqanlarının fəaliyyətinin hüquqi əsaslar üzərində qurulması üçün yeni Konstitusiyanın hazırlanması zərurəti yarandı. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə geniş tərkibli komissiya yaradıldı, bu komissiya Azərbaycanın tarixini, milli dəyərlərini və beynəlxalq hüquq normalarını nəzərə almaqla ölkənin Əsas Qanunu layihəsini hazırladı.

Geniş ictimai müzakirələrdən sonra 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Bu Konstitusiya müasir dövrün tələblərinə uyğun şəkildə hazırlanmış, hüquqi dövlətin, vətəndaş cəmiyyətinin, insan hüquq və azadlıqlarının təminatçısı kimi çıxış etmişdir. Əsas Qanun təkcə hüquqi akt deyil, həm də müstəqil dövlət quruculuğunun ideoloji və hüquqi platformasıdır. Bu ali sənədin qəbulu ilə ölkəmiz hüquqi dövlət quruculuğu yoluna qədəm qoydu və beynəlxalq hüquq sisteminə inteqrasiya prosesinə start verildi.

Dövlətçiliyimizin müstəqil və hüquqi əsaslar üzərində qurulması prosesi məhz Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə reallaşdı. 1995-ci ildə qəbul olunmuş Konstitusiya bu prosesin məntiqi və hüquqi nəticəsi olmaqla, dövlət idarəçiliyinin bütün sahələrinə istiqamət verdi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə formalaşmış hüquqi baza müasir Azərbaycanın inkişafının, sabitliyinin və beynəlxalq nüfuzunun əsas təminatıdır.

Azərbaycan Respublikasının qanunvericilik sisteminin təməlini təşkil edən və ölkədə ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiya, eyni zamanda, siyasi sabitliyin, milli həmrəyliyin və ictimai barışığın təminatçısı kimi çıxış edir. Konstitusiya ölkənin hüquqi-siyasi münasibətlər sisteminə və hüquqi düşüncə tərzinə mühüm təsir göstərərək dövlətin hüquqi əsaslarını müəyyənləşdirir.

Konstitusiya dövlət quruluşunun əsas prinsiplərini, şəxs, cəmiyyət və dövlət arasında hüquqi münasibətlərin çərçivəsini, siyasi sistemin təşkili qaydalarını, hakimiyyətin bölgüsü prinsipini, dövlət hakimiyyəti orqanlarının səlahiyyətləri və fəaliyyət mexanizmini müəyyən edir. Eyni zamanda, Konstitusiya insan hüquq və azadlıqlarının müdafiəsini təmin edən fundamental norma və prinsipləri təsbit edir. Konstitusiya yalnız dövlətin təşkilati strukturunu deyil, həm də ictimai maraqların qorunması məqsədilə dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərini və çərçivələrini formalaşdırır.

Konstitusiya Azərbaycan Respublikasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğunu bəyan edir, öz müqəddəratını sərbəst və müstəqil həll etmək və öz idarəetmə formasını müəyyən etmək hüququnu Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi və unitar respublika elan edir, insan və vətəndaş hüquq və azadlıqlarını, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi olaraq müəyyənləşdirir.

Konstitusiya quruluşunun əsas xüsusiyyətlərindən biri kimi iqtisadi fəaliyyət azadlığı, mülkiyyət formalarının müxtəlifliyi və onların bərabər müdafiəsinə təminat verilməsi xüsusi vurğulanır. Eyni zamanda, Əsas Qanunda Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qaldığı qeyd edilir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının, onların təminat mexanizmlərinin Əsas Qanunda ətraflı təsbit olunması ölkə Konstitusiyasının ən mühüm nailiyyətlərindən biri olmaqla yanaşı, həm də Azərbaycanın hüquqi dövlət dəyərlərinə və ümumbəşəri prinsiplərə sadiqliyini təsdiqləyir.

Konstitusiyanın ən əhatəli bölməsi olan üçüncü fəsli tam şəkildə insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. Bu fəsildə hüquqi dövlətdə təmin olunmalı əsas hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, qanuni məhdudlaşdırılma çərçivələri əks olunmuşdur. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının geniş siyahısı təsbit edilməklə yanaşı, həmin hüquqların qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının birbaşa vəzifəsi olaraq müəyyən edilmişdir.

Məlumdur ki, Konstitusiyanın əsas hüquqi xüsusiyyətlərindən biri onun sabitliyidir. Konstitusiya uzunmüddətli dövr üçün nəzərdə tutulan, hüquqi sistemin dayanıqlı əsasını təşkil edən ali normativ hüquqi aktdır. Bununla belə, cəmiyyətin inkişafı, sosial-iqtisadi və siyasi münasibətlərdə baş verən dəyişikliklər konstitusiya müddəalarının zaman-zaman təkmilləşdirilməsini zəruri etmişdir. Bu məqsədlə 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən ümumxalq referendumları yolu ilə Konstitusiyaya mühüm əlavə və dəyişikliklər edilmişdir.

Konstitusiyanın dövlət və hüquq sisteminə gətirdiyi mühüm yeniliklərdən biri də müstəqil, çoxpilləli məhkəmə sisteminin yaradılması olmuşdur. Müasir sivil cəmiyyətdə müstəqil məhkəmə hakimiyyəti insanların dövlətə olan etimadının, vətəndaş cəmiyyəti quruculuğunun, hətta iqtisadi inkişafın vacib şərtlərindən biri kimi çıxış edir.

Konstitusiyanın qəbulu nəticəsində qarşıya çıxan ən mühüm vəzifələrdən biri yeni hüquq sisteminin formalaşdırılması, bu sistemin tələblərinə cavab verən zəruri qanunvericilik bazasının yaradılması və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi idi. Azərbaycan Respublikasında hüquqi dövlət və müasir məhkəmə-hüquq sisteminin qurulması bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Konstitusiyaya əsaslanaraq yeni hüquq sisteminin formalaşdırılması məqsədilə Ümummilli Lider qabaqcıl beynəlxalq təcrübəni, milli dövlətçilik ənənələrini rəhbər tutaraq genişmiqyaslı islahatlara başladı.

Xüsusilə vurğulanmalıdır ki, 1995-ci il Konstitusiyası hüquqi dövlət quruculuğunda yeni mərhələnin əsasını qoydu və məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etdi. Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipi əsasında məhkəmə orqanlarının fəaliyyətinin hüquqi bazası yaradıldı, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə imkan verən çoxpilləli məhkəmə sistemi formalaşdı. Bu islahatların məntiqi davamı olaraq 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri təyin olundu və həmin il iyulun 18-də Ulu Öndər Heydər Əliyevin imzaladığı fərmanla Konstitusiya Məhkəməsi rəsmi olaraq fəaliyyətə başladı. Konstitusiya Məhkəməsinin təsis olunması və fəaliyyətə başlaması Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi hüquqi dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsi oldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycanda ali konstitusiya ədalət mühakiməsini həyata keçirən orqan yaradıldı.

Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması Azərbaycan Respublikasında konstitusionalizm ideyalarının tətbiqi, insan hüquqlarının müdafiəsi istiqamətində əlamətdar hadisəyə çevrildi. Konstitusiya ədalət mühakiməsi hüquqi dövlətin əsas institutlarından biri kimi bu gün də Konstitusiyanın aliliyinin təmin edilməsində, insan hüquqlarının qorunmasında və cəmiyyətin hüquqi mədəniyyətinin inkişafında mühüm rol oynayır. Ulu Öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin cəmiyyətdə rolu ilə bağlı qeyd etmişdir: "…Konstitusiya Məhkəməsi ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmiş, qəbul etdiyi qərarlarla hər kəsin Azərbaycan Konstitusiyasına, qanunlarına hörmət və ehtiramının, ədalət, azadlıq və humanizm kimi prinsiplərin möhkəmləndirilməsinə, demokratiyanın və hüquqi mədəniyyətin inkişafına, konstitusionalizm ideyalarının həyata keçirilməsinə dəyərli töhfəsini vermişdir".

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə yaradılan Konstitusiya Məhkəməsi bu gün Ulu Öndərin müəyyən etdiyi prinsiplər əsasında, hüquqi dövlətin inkişafı və konstitusiya ədalət mühakiməsinin daha da təkmilləşdirilməsi istiqamətində fəaliyyət göstərir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi geniş səlahiyyətlər dairəsinə malik müasir konstitusiya ədalət mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin əsas səlahiyyətləri sırasında qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının, bələdiyyə və məhkəmə aktlarının Konstitusiyaya və hüquqi qüvvəsinə görə daha üstün olan aktlara uyğunluğunun yoxlanılması, Konstitusiyanın və qanunların şərhi xüsusi yer tutur.

*1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri təyin olundu və həmin il iyulun 18-də Ulu Öndər Heydər Əliyevin imzaladığı fərmanla Konstitusiya Məhkəməsi rəsmi olaraq fəaliyyətə başladı. Konstitusiya Məhkəməsinin təsis olunması və fəaliyyətə başlaması Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi hüquqi dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsi oldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycanda ali konstitusiya ədalət mühakiməsini həyata keçirən orqan yaradıldı.*

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi çəkiyə malik olmaqla hüquq normasının mənasının aydınlaşdırılması, onun tətbiqində sabitliyin təmin olunması baxımından vacib rol oynayır. Bu qərarlar həm məhkəmə sistemində, həm də digər hüquq tətbiqetmə sahələrində hüquqi müəyyənlik prinsipinin təmininə xidmət edir. Konstitusiya Məhkəməsinin verdiyi rəsmi şərh normativ hüquqi aktın tətbiqi zamanı hüquq subyektlərinin düzgün hüquqi davranış istiqamətini müəyyənləşdirir, boşluqların aradan qaldırılmasına və qanunların Konstitusiyaya uyğun şəkildə tətbiqinə şərait yaradır. Konstitusiya Məhkəməsi Plenumunun qəbul etdiyi qərarlarda ifadə olunmuş hüquqi mövqelərin məhkəmələr tərəfindən birmənalı şəkildə tətbiqi hüquqi sistemdə normativ sabitliyin qorunmasına xidmət edən mexanizmlərdən biridir. Bu qərarlar yalnız konkret hüquqi məsələnin həlli üçün deyil, bütövlükdə məhkəmə təcrübəsinin formalaşması və inkişafı üçün də mühüm əhəmiyyət daşıyır. Məhkəmələr tərəfindən Konstitusiya Məhkəməsi Plenumunun qərarlarına istinad edilməsi və hüquqi mövqelərin tətbiqi oxşar hüquqi münasibətlərə vahid yanaşma ilə nəticələnir ki, bu da Konstitusiya ilə bəyan edilmiş əsas prinsip və hüquqi dəyərlərin təmin edilməsində mühüm rol oynayır.

Ötən illər ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 599 qərar və 181 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılmış hüquqi mövqelər ilk növbədə Konstitusiyanın aliliyinin təmin olunmasına, eyni zamanda əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir.

Qəbul edilən qərar və qərardadlarda hüquqi mövqelərdə məhz Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi əsas götürülərək müvafiq hüquq normalarına hüquqi qiymət verilir. Əhəmiyyəti nəzərə alınaraq 2025-ci ildə qəbul edilmiş qərarlardan və orada formalaşdırılmış hüquqi mövqelərdən bəziləri qeyd olunmalıdır.

Bakı Ağır Cinayətlər Məhkəməsinin müraciəti əsasında qəbul edilən *"Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin V hissəsinin və 60-cı maddəsinin I hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 522-ci maddəsinin şərh edilməsinə dair" 2025-ci il 9 aprel tarixli Qərarda* Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı ilk növbədə qeyd etmişdir ki, hər hansı dövlətin məhkəmə qərarının digər dövlətin ərazisində icrası üçün sonuncunun qanunvericiliyi ilə belə bir icraya imkan verilməli, habelə həmin dövlətin səlahiyyətli orqanları xarici məhkəmə qərarının hüquqi qüvvəsini tanımalıdır. Beləliklə, xarici dövlətin məhkəmə qərarının məcburi icrası üçün zəruri şərt ərazisində həmin məhkəmə qərarının icrasının tələb olunduğu dövlət tərəfindən tanınmadır. Bu Qərarda göstərilmişdir ki, xarici dövlətlərin məhkəmələrinin qərarlarının icrasındakı əsas problem bu məhkəmə qərarlarının, ilk öncə ərazi aidiyyətinə görə qəbul edildiyi dövlətin ərazisi daxilində hüquqi qüvvəyə malik olmasıdır. Məhkəmə qərarı qətidir və onun məcburi icrası öz ölkəsinin yurisdiksiyası çərçivəsində və yalnız həmin dövlətin ərazisində yerləşən proses iştirakçılarına münasibətdə həyata keçirilir. Məhz bu, dövlət suverenliyinin ədalət mühakiməsi sahəsində reallaşdırılmasının əsas istiqamətlərindən biridir.

Dövlət suverenliyinin həyata keçirilməsi bilavasitə dövlətin məcburiyyət vasitələrinə olan inhisarı ilə bağlıdır ki, bu da icra prosesinə dair məsələlərə birbaşa təsir edir. Müvafiq olaraq, icra tədbirləri xarici dövlətlərin məhkəmə qərarlarına münasibətdə deyil, müstəsna olaraq yerli ədalət mühakiməsi orqanları tərəfindən qəbul edilən qərarlara münasibətdə həyata keçirilə bilər. Məhkəmə hökmünün və ya digər yekun qərarının başqa dövlətin ərazisinə şamil edilməsi yalnız müvafiq beynəlxalq müqavilədən irəli gəlməli, yaxud bərabərlik və qarşılıqlılıq əsasında mümkündür.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd etmişdir ki, təqsirləndirilən şəxs barəsində xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına zərurətin olub-olmaması cinayət-prosessual qanunvericiliyin məqsəd, vəzifə və prinsipləri, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtləri nəzərə alınmaqla qiymətləndirilməli, həmin hökm və ya qərarların tanınmasına zərurət olmadığı qənaətinə gəldikdə isə bu, əsaslandırılmalıdır. Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Konstitusiyanın 125-ci maddəsinin V hissəsinin və 60-cı maddəsinin I hissəsinin tələblərinə uyğun olaraq məhkəmə tərəfindən Cinayət-Prosessual Məcəllənin 522-ci maddəsindən kənar qaydada xarici dövlətin məhkəməsinin hökmünün tanınması və təqsirləndirilən şəxsə cinayətlərin məcmusu üzrə cəza təyin edilərkən xarici dövlətin məhkəməsinin hökmü ilə çəkdiyi cəzanın ona təyin ediləcək cəza müddətinə hesablanması yolverilməzdir.

Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilən *"Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I və II hissələri və 62-ci maddəsi baxımından "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 41 və 76-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 128.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2025-ci il 16 may tarixli Qərarda* Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, məhkəmə müdafiəsi hüququnun tam həcmdə həyata keçirilməsi və pozulmuş hüquqların ədalət mühakiməsinin əsas prinsiplərinin tələblərinə cavab verən şəkildə bərpa edilməsi üçün qanunvericilikdə xüsusi təminatlar nəzərdə tutulmuşdur. Bu təminatlardan biri də hər hansı bir məhkəmə işinə çevik şəkildə peşəkar hakim tərəfindən baxılması məqsədilə qanunvericiliklə dəqiq müəyyən edilən məhkəmə aidiyyəti ilə bağlıdır.

(davamı 10-cu səhifədə)

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 27 il keçir



**(əvvəli 9-cu səhifədə)**

Konstitusiyanın 62-ci maddəsinə əsasən, hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Bu normada qeyd edilən "qanunla müəyyən edilmiş məhkəmə" müddəası işlərin aidiyyət qaydalarını, qanuni məhkəmə tərkibinin mövcudluğunu, prosessual şərtləri və s. elementləri ehtiva edir. Qanunvericilikdə mübahisələrin məhkəmə aidiyyəti məsələsinin aydın və dəqiq göstərilməsi insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi baxımından olduqca əhəmiyyətlidir. Konstitusiya Məhkəməsinin Plenumunun qənaətinə görə, istənilən hüquqi təminatın səmərəliliyi onun qanunvericiliklə müəyyən edilmiş dəqiq realizə mexanizminin olmasından asılıdır. Məhkəmə aidiyyəti ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəxsin hüquqlarının və qanuni maraqlarının müdafiəsinə zəmanət verən təminatlardan biri olaraq qanunla dəqiq müəyyən edilməlidir. Əks təqdirdə bu və ya digər işin hansı məhkəmə icraatı qaydasında baxılmasına dair qeyri-müəyyənlik yarana, bu isə işə məhkəmə tərəfindən ağlabatan müddətdə və ixtisaslaşmış qaydada baxılmasına çətinlik yarada, son nəticədə şəxsin pozulmuş hüquqlarının bərpa edilməsini qeyri-mümkün edə bilər. Adıçəkilən Qərarda Konstitusiya Məhkəməsinin Plenumu məhkəmə təcrübəsinin sabitliyini və davamlılığını təmin etmək məqsədilə mübahisələrin sırf notariusun hərəkətinin və ya qərarının özü ilə deyil, bir qayda olaraq həmin hərəkət və ya qərarın əsasını təşkil edən mülki hüquq münasibətləri (mülki hüquq və öhdəliklərlə) ilə bağlı olduğunu, tam və ədalətli tədqiq ediləcəyini nəzərə alaraq notariat hərəkətlərindən və ya notariat hərəkətlərini aparmaqdan imtinaya dair şikayətlərə ümumi məhkəmələrdə baxılması təcrübəsinin davam etdirilməsini məqsədəmüvafiq hesab etmişdir.

> *“Bu gün müstəqil Azərbaycan dövləti çoxəsrlik tarixinin parlaq dövrünü yaşayır. Tariximizin ən əlamətdar hadisəsi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunmasıdır. Vətən müharibəsində qazanılan Zəfər xalqımızın milli birliyinin, Azərbaycan Ordusunun gücünün, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli liderliyinin və Dövlət-Xalq birliyinin parlaq təntənəsidir.”*

Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticələrə gəlmişdir ki, göstərilən məsələ qanunvericilik qaydasında həll edilənədək notariusun apardığı icra qeydindən verilən şikayətlərə mülki məhkəmə icraatı qaydasında ümumi məhkəmələrdə baxılmalıdır. Həmçinin qanunverici orqan tərəfindən "Notariat haqqında" Qanunun 41-ci maddəsində nəzərdə tutulmuş notariusun icra qeydinin mübahisələndirilməsi müddəti dəqiq müəyyən edilənədək məsələyə qanunun analogiyası üzrə Mülki Prosessual Məcəllənin 282-ci maddəsində nəzərə tutulmuş 10 günlük müddət tətbiq edilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun son qərarlarından biri olan və Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilən *"Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1-ci maddəsinin həmin Məcəllənin 520.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2025-ci il 18 iyun tarixli Qərarda* cəzanın sosial ədalətin bərpası məqsədilə bağlı qeyd edilmişdir ki, cinayət cəmiyyət tərəfindən qəbul edilən dəyərlər sistemini pozan ictimai təhlükəli hərəkət olduğundan bu nəticələri aradan qaldırmaq sosial ədalətin bərpasına xidmət edir. Sosial ədalətin bərpası cəmiyyətin şüurunda hüquq pozuntusunun nəticəsiz qalmayacağına dair inamı formalaşdırmaqla onun hüquqa olan etimadını gücləndirir, habelə cəmiyyətdə dövlətin cinayət törətmiş şəxsi cəzalandırmağa qadir olmasına dair əminliyi təmin etmiş olur.

Bu Qərarda Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, cəzanın bir-birilə əlaqəli olan üç məqsədindən biri kimi sosial ədalətin bərpası əsasən cəzanın təyin olunması ilə bağlı olsa da, digər iki məqsədinə - məhkumun islah edilməsinə və yeni cinayətlərin törədilməsinin qarşısını alınmasına bilavasitə təyin edilmiş cəzanın icrası prosesində nail olunmağa çalışılır. Həmçinin qeyd edilmişdir ki, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi məhkumun cəza müddətində göstərdiyi nümunəvi davranış, islah olunma səviyyəsi və cəmiyyət üçün təhlükə dərəcəsi nəzərə alınmaqla və yalnız cəzanın qanunvericiliklə müəyyən edilmiş müvafiq hissələrini çəkdikdən sonra tətbiq olunur. Sərt rejimli müəssisədən daha yumşaq rejimli müəssisəyə keçid məhkumun sosial adaptasiya prosesini asanlaşdırır və onun reabilitasiyasına kömək edir. Bu baxımdan, cəzaçəkmə müəssisəsinin növünün ağır rejimli müəssisədən daha yüngül rejimli müəssisəyə dəyişdirilməsi cəzaların icrası qanunvericiliyinin məqsəd və prinsiplərindən irəli gələrək məhkumun islah edilməsi prosesinin tərkib hissəsi olduğundan, zərər çəkmiş şəxsin hüquq və mənafelərinə birbaşa təsir etmir. Odur ki, istər məhkumun öz ərizəsi, istərsə də cəzaçəkmə müəssisəsinin təqdimatı ilə qaldırılan həmin məsələnin məhkəmə tərəfindən həlli zərər çəkmiş şəxsin mövqeyindən asılı olan məsələ kimi qiymətləndirilə bilməz.

Adıçəkilən Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticələrə gəlmişdir ki, Cinayət-Prosessual Məcəllənin 520.2-ci maddəsinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Cinayət-Prosessual Məcəllənin 509.1.1-509.1.8-ci maddələri ilə nəzərdə tutulmuş məsələlərlə bağlı məhkəmə qərarından zərər çəkmiş şəxsin apellyasiya və ya kassasiya şikayəti vermək hüququ istisna edilir. Konstitusiyanın 60-cı maddəsindən və Cinayət-Prosessual Məcəllənin 383.1.5, 409.4, 520.7-ci maddələrinin müddəalarından irəli gələrək hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılan məsələlərə dair məhkəmə qərarları yalnız zərər çəkmiş şəxsin mənafelərinə toxunduğu hallarda, zərər çəkmiş şəxs həmin qərarlardan apellyasiya və kassasiya şikayəti vermək hüququna malikdir.

O da qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi beynəlxalq hüquqi əməkdaşlığın inkişafına önəm verərək xarici ölkələrin konstitusiya ədalət mühakiməsi orqanları ilə sıx əlaqələr qurmuşdur. Bu əməkdaşlıq qarşılıqlı təcrübə mübadiləsinin təşviqi baxımından əhəmiyyətli rol oynayır. Konstitusiya Məhkəməsi beynəlxalq məhkəmə-hüquq əməkdaşlığı çərçivəsində müxtəlif ölkələrin konstitusiya ədalət mühakiməsi orqanları, eləcə də bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlar tərəfindən təşkil olunan tədbirlərdə mütəmadi olaraq iştirak edir. Belə tədbirlər hüquqi bilik və təcrübənin paylaşılması baxımından zəruridir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illik yubileyi münasibətilə cari il iyulun 16-da Bakı şəhərində "Konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar" mövzusunda geniş miqyaslı beynəlxalq konfrans keçiriləcək. Tədbirdə Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Belarus, Gürcüstan, İraq, Moldova, Serbiya, Tacikistan və Şimali Kipr Türk respublikalarının konstitusiya ədalət mühakiməsini həyata keçirən orqanların nümayəndə heyətlərinin iştirakı nəzərdə tutulur. Bununla yanaşı, Azərbaycan Respublikasının bir sıra dövlət qurumlarının rəhbərləri və nümayəndələri, hüquq sahəsində tanınmış alimlər və digər qonaqlar da tədbirə qatılacaqlar.

Konfrans çərçivəsində konstitusiya ədalət mühakiməsinin aktual məsələlərinə həsr olunmuş məruzələr təqdim olunacaq, hüquqi dövlət quruculuğunda və konstitusiya prinsiplərinin reallaşdırılmasında konstitusiya ədalət mühakiməsi orqanlarının rolu geniş şəkildə müzakirə ediləcək. Eyni zamanda, konfrans iştirakçıları müasir dövrdə konstitusiya ədalət mühakiməsinin qarşısında duran çağırışları, milli və beynəlxalq səviyyədə tətbiq olunan yeni yanaşmaları nəzərdən keçirəcəklər. Tədbir ölkəmizin konstitusiya ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illik yubileyi münasibətilə keçiriləcək beynəlxalq konfransla yanaşı, həmin gün Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) I Konqresi də keçiriləcək. Bu mühüm tədbir Türk dövlətləri arasında hüquqi əməkdaşlığın gücləndirilməsi və konstitusiya ədalət mühakiməsi sahəsində təcrübə mübadiləsinin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Xüsusilə qeyd edilməlidir ki, cari ilin 27 aprel tarixində Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı Təşkilatına müvəqqəti sədrlik səlahiyyətləri rəsmi olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə verilmişdir. Sədrlik dövrünün məhz "Konstitusiya və Suverenlik İli" ilə üst-üstə düşməsi simvolik və məzmunca əhəmiyyətlidir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Təşkilata sədrliyi dövründə hüquqi əməkdaşlığın daha da dərinləşdirilməsi, konstitusiya ədalət mühakiməsi sahəsində qabaqcıl təcrübənin təşviqi əsas prioritetlər kimi müəyyən edilmişdir. TÜRK-AY Təşkilatının I Konqresinin keçirilməsi Türk dövlətləri arasında hüquqi inteqrasiyanın, konstitusionalizm dəyərlərinin təşviqinin və insan hüquqlarının müdafiəsində ortaq yanaşmaların formalaşdırılmasına mühüm töhfə verəcək, həmçinin türkdilli dövlətlər arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi, ortaq mədəni və hüquqi dəyərlərin qorunub saxlanılması, konstitusiya ədalət mühakiməsinin inkişaf etdirilməsi üçün yeni hüquqi platforma yaradacaq. Konqres çərçivəsində Türk dövlətləri arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən "Bakı Bəyannaməsi"nin imzalanması nəzərdə tutulur. Bu mühüm sənəd 6 iyul 2024-cü il tarixli "Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün Qarabağ Bəyannaməsi"ndə əksini tapmış Türk dövlətlərinin səylərinin, birliyinin vacibliyinin bir daha təsdiq edərək bu dövlətlərin konstitusiya ədalət mühakiməsi orqanları arasında hüquqi əməkdaşlığın institusional əsasda inkişafını təmin etməyə yönəlmiş təşəbbüsdür.

Vahid hüquqi dəyərlərə əsaslanan "Bakı Bəyannaməsi" Konstitusiyanın aliliyinin təmin edilməsində konstitusiya ədalət mühakiməsi orqanlarının rolunu vurğulayaraq, qarşılıqlı hüquqi informasiya və təcrübə mübadiləsinin genişləndirilməsini hədəfləyəcək. Sənəddə həmçinin türkdilli dövlətlərin konstitusiya məhkəmələri arasında əlaqələrin inkişaf etdirilməsi və həmrəyliyin gücləndirilməsi məsələlərinin əks etdirilməsi nəzərdə tutulur. "Bakı Bəyannaməsi" təkcə beynəlxalq hüquqi əməkdaşlığın yeni mərhələsinə keçidin ifadəsi deyil, həm də Türk dünyasında konstitusiya ədalət mühakiməsinin ümumi prinsiplər üzrə koordinasiyalı inkişafına dəstəyin rəmzidir. Konqres çərçivəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə Türkiyə Respublikası Konstitusiya Məhkəməsi, həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə İraq Respublikasının Federal Ali Məhkəməsi arasında Anlaşma Memorandumlarının imzalanması nəzərdə tutulur. Bu sənədlər tərəflər arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın genişləndirilməsinə, təcrübə və informasiya mübadiləsinin dərinləşdirilməsinə, eləcə də birgə təlim və tədqiqatların təşkili üçün möhkəm hüquqi zəmin yaratmağa xidmət edir.

> *"Konstitusiya Məhkəməsi ali konstitusiya ədalət mühakiməsi orqanı kimi səmərəli fəaliyyəti ilə Azərbaycan Respublikasının hüquq sisteminin sabitliyinin təmin edilməsində, onun davamlı inkişafında, milli qanunvericiliyimizin müasir dünya hüquq sisteminə inteqrasiyasında, cəmiyyətdə hüquq mədəniyyətinin daha da yüksəldilməsində əhəmiyyətli rol oynamış, insan hüquqlarının etibarlı təminatçısına çevrilmişdir.*
>
> *Əminəm ki, Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin fəal iştirakçısı olan Konstitusiya Məhkəməsi bundan sonra da ölkəmizdə demokratik və hüquqi dəyərlərin inkişafına öz töhfəsini verməkdə davam edəcəkdir".*
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti.**

Fərəh hissi ilə qeyd edilməlidir ki, bu gün müstəqil Azərbaycan dövləti çoxəsrlik tarixinin parlaq dövrünü yaşayır. Tariximizin ən əlamətdar hadisəsi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunmasıdır. Vətən müharibəsində qazanılan Zəfər xalqımızın milli birliyinin, Azərbaycan Ordusunun gücünün, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli liderliyinin və Dövlət-Xalq birliyinin parlaq təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır".

44 günlük müharibə və antiterror tədbirləri bir daha göstərdi ki, Azərbaycan Ordusu regionun ən güclü ordularından biridir və Silahlı Qüvvələrimiz qarşıya qoyulan istənilən vəzifəni yüksək peşəkarlıqla yerinə yetirməyə qadirdir. Təsadüfi deyil ki, Prezident cənab İlham Əliyev dəfələrlə vurğulamışdır: "Azərbaycan Ordusu dünyanın ən qüdrətli ordularından biridir". Qürurverici haldır ki, işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi və burada təsbit edilmiş hüquq və azadlıqlar tam təmin edilib. Bu, hüquqi dövlət prinsipinin və vətəndaşlarımızın hüquqlarının təminatının real təzahürüdür.

Müasir Azərbaycan regionda əsas söz sahibi, sabit və güclü iqtisadiyyata malik, mühüm geosiyasi mövqeyə sahib dövlət olaraq çıxış edir. Prezident cənab İlham Əliyevin rəhbərliyi, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə bir sıra qlobal layihələr həyata keçirilir ki, bu da Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirir.

Bu gün işğaldan azad edilmiş ərazilərdə iri miqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzurda müasir infrastruktur qurulur, şəhər və kəndlər yenidən salınır, yollar, tunellər, hava limanları inşa edilir. "Böyük Qayıdış" Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıdışı təmin olunur.

Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə aparılan yenidənqurma işləri, yaradılan yeni sosial-iqtisadi imkanlar region üçün də yeni perspektivlər açır və Azərbaycanın bölgədə təhlükəsizlik və sabitliyin əsas təminatçısına çevrildiyini bir daha təsdiq edir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan artıq sadəcə regional deyil, eyni zamanda qlobal səviyyədə öz sözünü deyən, müstəqil siyasət yürüdən, iqtisadi cəhətdən güclü və nüfuzlu dövlətə çevrilmişdir. Həyata keçirilən islahatlar nəticəsində ölkəmiz həm iqtisadi, həm də siyasi cəhətdən yeni inkişaf modelini formalaşdırmış və bu model beynəlxalq miqyasda nümunə kimi qəbul edilməkdədir. Eyni zamanda, müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutan Azərbaycan bu gün dünyanın nüfuzlu tədbirlərinə, qlobal forumlara, beynəlxalq konfranslara, zirvə görüşlərinə, idman yarışlarına, mədəniyyət və incəsənət festivallarına uğurla ev sahibliyi edir. Bu tədbirlər Azərbaycanın zəngin tarixi, mədəni irsinin və multikultural dəyərlərinin beynəlxalq aləmdə geniş təbliğinə mühüm töhfə verir və ölkəmizin qlobal nüfuzunu daha da artırır.

Azərbaycanın belə mötəbər mövqeyə çatması, qazanılan nailiyyətlər və beynəlxalq etimad ölkə Prezidenti cənab İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, milli maraqlara söykənən ardıcıl daxili və xarici siyasətinin nəticəsidir. Əminliklə demək olar ki, dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dövləti bundan sonra da yeni uğurlara imza atacaq və beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirəcək. Bu prosesdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirir. Konstitusiya Məhkəməsi Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın müddəalarının müdafiəsi, müstəqil dövlətimizin dayaqlarının möhkəmləndirilməsi və hüquqi dövlət quruculuğunun təmin olunması istiqamətində möhtərəm Prezident cənab İlham Əliyevin həyata keçirdiyi mütərəqqi hüquq islahatlarını dəstəkləyir və həyata keçirilməsində öz töhfəsini verməyə daim çalışır.

Qeyd edilməlidir ki, cari ildə Azərbaycan Respublikası Prezidentinin təqdimatlarına əsasən Milli Məclisin qərarları ilə Konstitusiya Məhkəməsinin hakim heyəti yenilənərək beş hakim təyin edilmişdir.

> *“Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hər zaman olduğu kimi, insan hüquq və azadlıqlarının müdafiəsi, müstəqil Azərbaycan dövlətinin Əsas Qanunu olan Konstitusiyanın müddəalarının qorunması, müstəqil dövlətimizin möhkəmlənməsi, xalqımızın maddi-mənəvi rifahının daha da yaxşılaşdırılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarına sadiqlik nümayiş etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhz bu ideyalar zəminində həyata keçirdiyi hərtərəfli islahatlara dəstək olaraq, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək fəaliyyətini daha da səmərəli qurmaq naminə səylərini əsirgəməyəcək.”*

Əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hər zaman olduğu kimi, insan hüquq və azadlıqlarının müdafiəsi, müstəqil Azərbaycan dövlətinin Əsas Qanunu olan Konstitusiyanın müddəalarının qorunması, müstəqil dövlətimizin möhkəmlənməsi, xalqımızın maddi-mənəvi rifahının daha da yaxşılaşdırılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarına sadiqlik nümayiş etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhz bu ideyalar zəminində həyata keçirdiyi hərtərəfli islahatlara dəstək olaraq, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək fəaliyyətini daha da səmərəli qurmaq naminə səylərini əsirgəməyəcək.

**Fərhad ABDULLAYEV,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin sədri.**